# “AZƏRBAYCAN RESPUBLİKASI AUDİTORLAR PALATASININ FƏXRİ FƏRMANI» HAQQINDA

***Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2004-cü il 20 avqust tarixli 136/3 saylı qərarından çıxarış***

Auditorlar Palatasının 2004-cü il üzrə iş planının 2.15-ci və Palata Şurasının 2004-cü il üzrə iş planının 26-cı bəndlərinə müvafiq olaraq, “Azərbaycan Respublikası Auditorlar Palatasının Fəxri Fərmanı” haqqında Auditin təşkili departamentinin (T.Əkbərov) təkliflərini müzakirə edərək, Auditorlar Palatasının Şurası **qərara alır:**

1. “Azərbaycan Respublikası Auditorlar Palatasının Fəxri Fərmanı”nın təsis edilməsi məqsədəuyğun sayılsın.

2. “Azərbaycan Respublikası Auditorlar Palatasının Fəxri Fərmanı” auditor xidməti sahəsində yüksək nəticələrə, qüsursuz fəaliyyətə, yüksək peşəkarlığa və Auditorlar Palatasının ictimai həyatında fəal iştiraka görə verilsin.

3. “Azərbaycan Respublikası Auditorlar Palatasının Fəxri Fərmanı”nın auditor xidməti sahəsində fəaliyyət göstərən hər bir şəxsə, təkrarən də verilməsi mümkün sayılsın.

4. “Azərbaycan Respublikası Auditorlar Palatasının Fəxri Fərmanı”nın Auditorlar Palatası sədrinin təşəbbüsü ilə, habelə Palatanın müvafiq departamentlərinin və auditor kollektivlərinin təqdimatı əsasında verilməsi məqbul hesab edilsin.

5. Azərbaycan Respublikası Auditorlar Palatasının sədri tərəfindən imzalanıb, Palatanın möhürü ilə təsdiqlənmiş Fəxri Fərmanın Palatanın sədri və ya onun tərəfindən təyin edilən digər məsul şəxslər tərəfindən Auditorlar Palatasında təntənəli şəraitdə təqdim edilməsi məqsədəuyğun sayılsın...